**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

## MUSİQİ SƏNƏTİ

**UOT 78.**
**DOI: 10.52094/3005-9941.45.2024.019**

**Humay Saleh qızı Mansurova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**dosent, Əməkdar müəllim**
**Email: humaymansurova8@gmail.com**

# ROBERT ŞUMANIN FORTEPİANO ÜÇÜN "VENA KARNAVALI" ƏSƏRİNİN İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Təqdim olunan məqalə görkəmli bəstəkar Robert Şumanın "Vena karnavalı" əsərinin ifaçılıq xüsusiyyətlərinin araşdırılmasına həsr edilmişdir. Məqalədə "Vena karnavalı" əsərinin yaranma tarixi, əsərin hissələri, hissələrin adları və hər bir hissənin xarakterik xüsusiyyətləri haqqında məlumat verilir. Eyni zamanda əsərin ifaçılıq xüsusiyyətləri araşdırılaraq, pianizm üsulları müəyyənləşdirilir və əsərin ifası prosesində qarşıya çıxan məsələlərin həlli üçün ifaçılıq tövsiyələri irəli sürülür. Sonda bu nəticəyə gəlinir ki, görkəmli bəstəkar Robert Şumanın yaradıcılığında fortepiano üçün əsərlər mühüm əhəmiyyət kəsb edir. Bu əsərlərin içərisində "Vena karnavalı" zəngin musiqisi və ifaçılıq üsulları ilə diqqəti cəlb edir.

**Açar sözlər:** Robert Şuman, Vena karnavalı, sonata, rondo, silsilə, hissələr, final, pianizm üsulları.

1839-cu ildə Vyanada keçirilən karnavaldan təsirlənən Robert Şuman "Vyana karnavalı" əsərini yazır və burada bəstəkarın Vyana ilə bağlı təəssüratları təcəssüm olunur [1, s.23].

Robert Şuman romantik bir bəstəkar kimi Vyananı romantik şəhər adlandırmış və öz əsərində bu şəhərə xas olan lirik duyğuları həssas musiqi dili ilə təsvir etmişdir.

O, "Vyana Karnavalı" əsərini böyük "Romantik sonata" adlandırmağı planlaşdırırdı. Belə ki, əsərdə sonata janrına xas olan xüsusiyyətlər özünü büruzə verir. Bu xüsusiyyətlər əsərin ayrı-ayrı hissələrinin geniş miqyasında və həm də hissələrin ardıcıllığında ifadə edilir. Bununla belə, "Vyana Karnavalı"nın formasının bəzi xüsusiyyətləri klassik sonata formasından fərqlənir. Əsər parlaq musiqi təsvirləri və rəngarəng obrazlarla səciyyələnir. Əsərdə Dunay sahillərində rəngarəng karnaval yürüşünə xas olan şən səhnələr əks edilir. Xüsusilə bu əhval-ruhiyyə əsərin birinci hissəsində daha qabarıq şəkildə təqdim olunur [3, s.47].

Əsərdə applikatura, mürəkkəb ritmlər və polifonik mürəkkəbliklərlə bağlı bir sıra ifaçılıq çətinlikləri var. İfaçı əsərdə mövcud olan emosional xarakteri açmaq üçün həm ayrı-ayrı hissələrin, həm də əsərin bütövlüyünə nail olmalıdır.

Birinci hissə Alleqro adlanaraq, bu hissədə karnaval təsvirlərinin rəngarəng mənzərəsi təqdim edilir. Rondo formalı bu hissədə bəstəkar tematik inkişafa böyük diqqət yetirir ki, bu da sonata janrının xarakterik xüsusiyyətidir. Rondo formasında olan bu hissə rəngarəng karnaval izdihamı arasında "yanıb-sönən" şəkillər qalereyasını açmağa imkan verir. Birinci hissə bayram ab-havasını əks etdirən parlaq girişlə açılır. Parlaq zaldan, şamların sayrışan alovundan, rəngarəng bayram səs-küyünü əks etdirən ümumi təəssürat təqdim edilir. Birinci hissə Şumanın pafoslu şənliyini xarakterizə edən ən yaxşı nümunələrdən biridir. İfaçı birinci hissəni təfsir edərkən parlaq bir orkestr tembri yaratmağa nail olmalıdır. Bunun üçün akkordlar kəskin və qabarıq səsləndirilməli, aydın və parlaq ifadə vurğulanmalıdır. Müəllifin tempi *Sehrlebhaft – çox canlı* təyin etməsinə gəlincə, deyə bilərik ki, bu temp musiqinin canlı, şən xarakterinin qabarıqlaşmasına uyğundur. Amma hissəni çox tez templə ifa etmək olmaz və mövzunu aydın şəkildə ifadə etməyə imkan verəcək bir temp tapmaq lazımdır. Akkordların təmiz və səhvsiz səslənməsinə diqqət etmək, göstərilən bütün vurğuları və *stakkato* ştrixini yerinə yetirmək lazımdır.

Giriş *B-dur* (si bemol major) qammasının tonikasında bitir və birinci epizod eyni səslə başlayır. Giriş və epizod arasında heç bir ritmik bölgü yoxdur. Epizodda refrenin xarakterik ritmik düsturu qorunub saxlanılır və inkişaf etdirilir ki, bu da fakturanı polifonikləşdirir. g-moll tonallığında yazılmış birinci epizod Şumanın lirikasının incisidir. Girişin həyəcanlı səslənməsi fonunda birinci epizodun lirik mövzusu şərh edilir. Mövzu kaman və bas açarında səslənərək, inkişaf dinamikasının zənginləşməsinə kömək edir. Bu epizod üzərində iş prosesində ən böyük problemlərdən biri ayrı-ayrı fiqurasiyaları vahid bütövlükdə birləşdirməkdir. Pianoçu melodiyanı bir qədər qabarıq səsləndirməli, üsyankar-həyəcanlı obrazın təcəssümü probleminin həllində mövzu və müşayiətin ayrılmazlığını göstərməlidir. Epizodun orta bölməsində müşayiət sol əldən sağa keçir. Müşayiətin mükəmməl hamar, melodik olması və melodiyanı boğmaması çox vacibdir. Melodiya pedaqogikada məlum olan polifoniya üzərində işləmə prinsiplərindən istifadə etməklə ifa edilə bilər.

İkinci epizod birincinin son xanəsində səslənməyə başlayır. Motivin zəif ritmdə sinkopa ilə səslənməyə başlanması Şumanın əsərləri üçün xarakterikdir. Bu epizod birdən-birə peyda olan sirli "maskalarla" xarakterizə olunur və onun musiqisi son dərəcə incə-fantastikdir. Dəyişən obraz-epizodların təzadına baxmayaraq, ifaçı ikinci və üçüncü epizodlara keçərkən tempi dəyişmədən saxlamalıdır. İkinci epizodda karnaval iştirakçılarının kütləvi rəqs səhnəsi təsvir edilir.

Üçüncü epizod ifaçı qarşısında yeni məsələlər qoyur. Belə ki, ifaçı üçüncü epizodda birinci epizodun xarakterini təkrarlayır. Amma burada polifonik prinsip özünü daha böyük qüvvə ilə büruzə verir və üç səsin hər biri tamamilə müstəqil hərəkət edir. Üçüncü epizod üzərində işləyərkən melodik xətlərin inkişaf məntiqini müəyyən etməklə hər bir səsi ayrı-ayrılıqda ifa etmək lazımdır. Pedala çox diqqət yetirilməli və bas səsləri vurğulanmalıdır. Üçüncü epizodun əsas mövzusunun son

icrasına doğru inkişaf kulminasiya ilə başa çatır. Bu fırtınalı axın epizodun kulminasiyası kimi hiss edilməlidir.

Dördüncü epizodun əvvəlində bir sitat verilir və "Üç cəngavər" adlı alman xalq mahnısının intonasiyaları səslənir. Ağır akkord fakturasında, *Fis-dur* tonallığında bir qədər komik obrazlar açılır. Burada ümumi səs effekti yüksək və sakit səslərin birləşməsi ilə əldə edilir. Vurğulanmış akkordlar ucadan ifa olunur, sanki dəstək nöqtələrini və xanə çərçivəsini təmsil edir, akkordlar asanlıqla ifa olunur. Bu bölmənin akkord quruluşuna baxmayaraq, əsas melodik xətti xatırlamaq vacibdir.

Epizodun sonrakı inkişafında Şumanın istifadə etdiyi alman xalq mahnısı ümumi intonasiyalar əsasında *As-dur* tonallığında və *fortissimo* (ff) dinamikasında “La Marseillaise”yə çevrilir. Bu bölmədə akkordlar və orkestr səsləri daha parlaq və cəlbedicidir. Melodiyada əsl karnaval cəsarətinin, fitnə-fəsadın və istehzanın ifadəsi daha aydın hiss edilir.

Kulminasiyada temp dəyişikliyi baş verir. Belə ki, *Höchst lebhaft*-son dərəcə sürətli temp əsərə yeni təravət gətirir.

Sonuncu, beşinci epizod akkordlar üzərində qurularaq, aşağı-yuxarı istiqamətlərdə hərəkət edən sıçrayışlardan ibarətdir. Akkord fakturasına baxmayaraq, yüngül və çevik ifaya nail olmalı, hər bir akkordu səliqə ilə səsləndirmək lazımdır. Pedal məsələsinə çox diqqətlə yanaşmaq, akkordları pedalla ifa edərkən onların tembr baxımından təmiz səslənməsinə riayət etmək lazımdır.

Sonuncu epizoddan sonra birinci hissənin kodasının intonasiyaları eşidilir. Koda bütün hissəni tamamlayaraq, sanki onun nəticəsi kimi təqdim edilir. Burada dinləyiciyə tanış olan mövzular və şəkillər şərh edilir.

İkinci hissə "Romans" adlanaraq, sadə üç hissəli formada yazılmışdır. Bu hissə Şumannın xəyal və düşüncələrini əks etdirən lirik bir lövhədir. Burada ifaçılıq baxımından çətinlik melodiyanın davamlı inkişafıdır. Mövzuya çox ehtiras və həyəcan vermədən statiklikdən uzaqlaşmaq lazımdır.

Üçüncü hissə “Skerso” adlanır və burada xalq musiqi intonasiyaları yumoristik musiqi ilə təqdim edilir. Üçüncü hissənin əhval-ruhiyyəsi karnavalın birinci hissəsi və bayram finalı ilə səsləşir və burada zarafatyana əhval-ruhiyyə əks olunur. Üçüncü hissə üzərində işləyərkən müəllifin göstərdiyi vurğulara dəqiq riayət etmək lazımdır. Çünki, vurğuların, sinkopa və pauzaların dəqiq saymaqla ifa olunması ilə hissəyə xas olan şən əhval-ruhiyyəni xarakterizə etmək mümkündür. “Skerso” iki mövzu ilə təqdim edilir və sağ-sol əllərin hər birində müstəqil mövzu sərbəst şəkildə hərəkət edir. İkinci mövzu birincinin ritmik fiqurunu təkrarlayır. Burada əsas ifaçılıq çətinliyi: müstəqil şəkildə hərəkət edən mövzuların hər birini nəzərə çarpdırmaq, motivləri köməkçi səslərdən ayrı ifa etmək, intonasiyanı eşitmək və onların inkişaf məntiqini müəyyən etmək lazımdır.

Üçüncü hissənin kulminasiyası *fortissimo* (ff) nüansında parlaq, şən, bir qədər düşüncəli və təntənəli səslənir. Bu bölmə kontrastlıq prinsipinə əsaslanaraq, ondan

sonra *piano* (p) nüansında ilk mövzu yenidən təqdim edilir. Mövzu qəflətən güclü dinamika ilə səslənərək, sağ və sol əllərdə vurğunun dəyişməsi əsasında "qasırğa" kimi partlayır və sonrakı oktava keçidi *Accelerando* şən akkordlarla bitir.

"Vena karnavalı" əsərinin dördüncü hissəsi "İntermesso" adlanaraq, bu hissənin musiqisi ehtiraslı yüksəlişlə təqdim edilir. Əsas mövzu lirik xarakterli olmasına baxmayaraq, təsirli və son dərəcə emosional girişlə verilir. Müşayiət partiyası da xüsusi enerji və gərginliklə səslənir. Burada Şuman "üç əl effekti"ndən də istifadə edir.

Bu hissə üzərində işləyərkən əsas melodiya ilə müşayiətin ideal bərabərliyinə və bütövlüyünə nail olmaq lazımdır. Onu melodiyadan ayrı, yavaş-yavaş öyrənmək və bu zaman sol əldə ifa olunan onaltılıq notlar ayrıca səslənməməli və fərqlənməlidir. Müşayiəti mövzu ilə birləşdirərkən rəvan səslənməyə nail olmaqla əsas mövzu yaxşı eşidilməlidir. Hissənin sonuna doğru artan gərginlik bir qədər sakitləşərək, mövzunun əks-sədaları müxtəlif registrlərdə səslənir.

Silsilənin beşinci hissəsi "Final"dır. Bütün əsəri tamamlayan bu hissə şən, bayram əhval-ruhiyyəsində bəstələnmişdir. Qeyd etmək lazımdır ki, Şuman formalar sahəsində yenilikçi idi. O, sonata formasını süita prinsipi ilə birləşdirərək yenilik etdi. Sonata forması əsasən əsərin final hissəsində daha qabarıq əks etdirilmişdir. Əsərin ilk dörd hissəsi Vyanada bəstələnsə də, final üzərində iş Leypsiqdə davam etdirilmişdir [2, s.113].

Final hissəsində karnavalın bayram elementinin enerjisi daha qabarıq şəkildə hiss olunur.

"Final"ın əsas mövzusu olduqca şən xarakter daşıyaraq, silsilənin xarici əzəmətinin kulminasiya nöqtəsi kimi təqdim edilir. Şuman birinci və beşinci hissələri *B-dur* tonallığında bəstələyərək, bayram və karnaval hissələrini birləşdirir. Əsas mövzu böyük texniki çətinlik kəsb edir və bu virtuoz mövzu ifaçının qarşısında bir sıra mühüm vəzifələr qoyur: applikaturanın düzgün seçilməsi, əllərin cəld və çevik hərəkəti, əzələ sərbəstliyi və s.

Onaltılıq notları *legato* ilə birləşdirmədən ayrı-ayrı ifa etmək, ritmik pulsasiyanı aydın hiss etmək və sürətli tempə *Höchst lebhaft* (son dərəcə sürətli) baxmayaraq tələşdan qaçmağa çalışmaq lazımdır. Trel notların dəqiq saymaqla ifasına nail olmaq, *staccato* ştrixini yüngül çalmaq və pedaldan ani olaraq istifadə etmək lazımdır.

Finalda əllər çarpazlaşdırma texnikasından istifadə edərək müxtəlif registrlərə keçir. Müşayiət mövzusu trel notlar üzərində qurulmuşdur. Müşayiət mövzusunu dəqiq və səlis şəkildə ifa etmək üçün sol əli yavaş tempdə (Adajio) məşq etmək və ritmik səs bərabərliyinə nail olmaq lazımdır.

Repriza ənənəvi ton nisbətində yazılmışdır və reprizadan sonra Şuman klassik sonata forması üçün xarakterik olmayan başqa bir epizod təqdim edir. Bu epizod sağ və sol əllərdə bərabər səslənən trel notlardan ibarətdir.

Əsərin kodası ifaçı üçün böyük texniki çətinlik yaradaraq, sürətli tempinə

baxmayaraq, *piano* (p) nüansında təqdim edilir. Lakin, səslənmə tədricən yüksələrək *fortissimo (ff)*-ya çatdırılır və əsər fanfar akkordları ilə bitir.

"Vyana karnavalı" silsiləsini ifa etmək pianoçudan ifaçılığa xas olan bütün mürəkkəb üsulları bilməyi və mənimsəməyi tələb edir.

Beləliklə, Robert Şumanın yaradıcılığı çoxşaxəli olub, fortepiano əsərləri onun yaradıcılığının mühüm sahəsini təşkil edir. Bəstəkar fortepiano üçün bir-birindən zəngin əsərlərin müəllifidir və bu əsərlərin içərisində " Vena karnavalı" əsəri mühüm yer tutur.

## Ədəbiyyat siyahısı:

1. Грохотов С.В. "Шуман: Карнавал" Москва, Музгиз, 2009, 23 с.
2. Ганзбург Г.И. Песенный театр Роберта Шумана // Музыкальная академия. 2005. № 1. С. 106–119.
3. Житомирский Д.В. Роберт Шуман: Очерк жизни и творчества. Москва, 1964, с.47
4. https://az.wikipedia.org/wiki/Robert_Şuman

**Humay Saleh Mansurova**

## PERFORMANCE FEATURES OF ROBERT SCHUMAN'S "VIENNA CARNIVAL" FOR PIANO

**Summary:** The presented article is devoted to the study of performance characteristics of the famous composer Robert Schuman's "Vienna Carnival". The article provides information about the creation date of the work "Vienna Carnival", the parts of the work, the names of the parts and the characteristic features of each part. At the same time, the performance characteristics of the piece are investigated, pianism methods are determined, and performance recommendations are put forward to solve the issues encountered during the performance of the piece. In the end, we come to the conclusion that works for the piano are of great importance in the work of the outstanding composer Robert Schuman. Among these works, "Vienna Carnival" attracts attention with its rich music and performance methods.

**Key words:** Robert Schumann, Vienna carnival, sonata, rondo, series, parts, finale, pianistic methods.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19.03.2023**